**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№386/6** **11 mart 2026-cı il**

**“Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri”nin “İzahedici şərhlər” bölməsində dəyişiklik edilməsi barədə**

Auditor xidmətlərinin keyfiyyətinin təmin edilməsi, peşə fəaliyyətinin iqtisadi əsaslarının qorunması, sağlam rəqabət mühitinin formalaşdırılması və dövlət satınalmalarında auditor xidmətləri üzrə minimum hədlərin faktiki tətbiqinin təmin edilməsi məqsədilə Palatanın Haqsız rəqabətə qarşı mübarizə və beynəlxalq əlaqələr idarəsi (R.Cəfərli) tərəfindən 2026-cı il 13 fevral tarixli xidməti məktubla təqdim olunmuş Auditorlar Palatası Şurasının 2022-ci il 3 oktyabr tarixli 348/1 nömrəli qərarı ilə təsdiq edilmiş və 2023-cü il tarixli 16 may 356/1 nömrəli qərarı ilə dəyişiklik edilmiş “Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri”nin “İzahedici şərhlər” bölməsində dəyişiklik edilməsi barədə layihəni müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditorlar Palatası Şurasının 2022-ci il 3 oktyabr tarixli 348/1 nömrəli qərarı ilə təsdiq edilmiş və 2023-cü il tarixli 16 may 356/1 nömrəli qərarı ilə dəyişiklik edilmiş “Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri”nin “İzahedici şərhlər” bölməsinin 4-cü bəndi aşağıdakı redaksiyada verilsin:

- “4. Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, publik hüquqi şəxslər və büdcə təşkilatları tərəfindən auditor xidmətlərinin satınalınması üzrə keçirilən tender və kotirovkalar zamanı ehtimal olunan qiymətin müəyyən olunması üçün Palata tərəfindən təsdiq olunan minimum hədlər tətbiq edilir.”

2. Auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tapşırılsın ki, auditor xidmətlərinin satınalınması üzrə keçirilən tender və kotirovkalar zamanı dəyişiklik edilmiş “Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri”nin “İzahedici şərhlər” bölməsinin 4-cü bəndini 2026-cı il 1 aprel tarixindən tətbiq etsinlər.

3. Audit sistemində icra intizamına nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, bir həftə müddətində bu qərarın və dəyişiklik edilmiş “Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri”nin mətnlərinin auditor təşkilatlarına və sərbəst auditorlara göndərilməsi və Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Palatanın sədri** **Vahid Novruzov**